# Köməkçi texnologiya

## Əsas mesajlar: Görmə üçün köməkçi məhsullar

### Birinci dərs: Görmə və müxtəlif görmə problemləri

- Uzaq görmə uzaqda yerləşən obyektləri görmək qabiliyyətidir.
- Yaxın görmə yaxında yerləşən obyektləri görmək qabiliyyətidir.
- Görmə problemlərinin qarşısı müalicə və/və ya köməkçi məhsullar vasitəsilə alına, yaxşılaşdırıla və ya korreksiya edilə bilər.
- Görmə problemləri ümumiyyətlə göz sağlamlığı problemləri və ya refraktiv xətadan refraksiya anomaliyaları nəticəsində yaranır.
- Refraksiya anomaliyaları gözün forması ilə bağlı dəyişikliklərdir. Bu, aşağıdakı görmə problemlərinə səbəb ola bilər:
  - **Uzaq görmə problemi (miopiya və ya yaxınıgörmə): şəxs uzaqda yerləşən obyektləri aydın görməkdə çətinlik çəkir.**
  - **Yaxın görmə problemi (hipermetropiya və ya uzağıgörmə): şəxs yaxında yerləşən obyektləri aydın görməkdə çətinlik çəkir.**
  - **Yaşla əlaqəli yaxın görmə problemi (presbiopiya): 40 yaşdan yuxarı şəxslər yaxında yerləşən obyektləri görməkdə çətinlik çəkirlər.**
  - **Astiqmatizm:** şəxs həm yaxında, həm də uzaqda olan obyektləri aydın şəkildə görməkdə çətinlik çəkir.
- Qarşısı alına bilməyən görmə problemlərini müalicə vasitəsilə korreksiya etmək mümkün deyil. Bunlara zəif görmə və görmə qabiliyyətinin itirilməsi daxildir. Qarşısı alına bilməyən görmə problemləri olan şəxsə bəzi köməkçi məhsullar yerinə yetirmək istədiyi işləri yerinə yetirməkdə kömək edə bilər.

### İkinci dərs: Görmə üçün köməkçi məhsullar

- Görmə üçün köməkçi məhsullara aşağıdakılar daxildir:
  - Görmə qabiliyyətini korreksiya edən və ya yaxşılaşdıran məhsullar. Mməsələn, oxumaq üçün eynək, təyinatlı eynək, böyüdücülər, teleskoplar.
  - Görmə qabiliyyəti zəif olan və ya görmə qabiliyyətini itirmiş şəxslərin işləri yerinə yetirmək üçün öz eşitmə qabiliyyətlərindən və ya toxunmadan istifadə etməsinə kömək edən məhsullar. Məsələn, Brayl yazı lövhəsi və stilus, audiopleyerlər, səs vasitəsilə çalışan saatlar.
  - Görmə qabiliyyəti zəif olan və ya görmə qabiliyyətini itirmiş şəxslərin hərəkət etməsinə kömək edən məhsullar. Məsələn, ağ çəliklər.
- İnsanlar öz ehtiyaclarından və yerinə yetirmək istədikləri fəaliyyətlərdən asılı olaraq görmə üçün köməkçi məhsulların birdən artıq növündən istifadə edə bilərlər.
- Görmə üçün köməkçi məhsulların bəziləri TAP-a daxil edilsə də, bəziləri onları təmin etmək üçün ixtisaslı bacarıqlar və avadanlıq tələb etdiyi üçün TAP-a daxil edilməmişdir (məsələn, təyinatlı eynəklər).

### Üçüncü dərs: Sadə görmə yoxlamasını necə həyata keçirməli

- TAP göz yoxlaması görmə qabiliyyətinin tam qiymətləndirilməsi deyildir. O, şəxsdə göz sağlamlıq probleminin və ya görmə çətinliyinin olub-olmadığını və aşağıdakıları öyrənmək üçün aparılan yoxlamadır:
  - Şəxsin göz sağlamlığı üzrə mütəxəssisə və ya həkimə yönləndirilməli olub-olmadığını;
  - Təyinatlı eynək üçün yönləndirilməli olub-olmadığını;
  - TAP-a daxil edilmiş görməyə köməkçi məhsullardan yararlana bilib-bilməyəcəyini.
- TAP görmə qabiliyyətini yoxlama forması yoxlama qaydalarını ehtiva edir və aşağıdakıları əhatə edir:
  - Sadə göz sağlamlığı yoxlaması (8 yaş və yuxarı şəxslər üçün) – göz sağlamlığı probleminin əlamətlərini müəyyənləşdirməyə kömək etmək üçün;
  - Sadə uzaq görmə testi (8 yaş və yuxarı şəxslər üçün) və sadə yaxın görmə testi (40 yaş və yuxarı şəxslər üçün) – potensial görmə problemlərini müəyyənləşdirməyə kömək etmək üçün.

Sadə görmə yoxlamasının nəticələrindən asılı olaraq həyata keçiriləcək tədbirlər:

| Mümkün tədbir | Məlumat |
|---|---|
| Qiymətləndirmək üçün göz sağlamlığı üzrə mütəxəssisə yönləndirin. | Əgər şəxsin qiymətləndirilməmiş və müalicə olunmamış göz sağlamlığı problemi varsa, ona görmə üçün köməkçi məhsullar verilməməlidir. |
| Daha təfsilatlı göz müayinəsi üçün göz sağlamlığı üzrə mütəxəssisə yönləndirin. | • Göz müayinəsi şəxsin göz sağlamlığını və görmə qabiliyyətini ətraflı yoxlamaq üçün zəruridir və reseptlə verilən eynəklərin təyin edilməsi üçün lazımdır.<br>• Zəif görməsi olan hər bir şəxs görmə üçün köməkçi məhsullar təyin edilməzdən əvvəl tam göz müayinəsindən keçməlidir, çünki onların vəziyyəti müalicə oluna bilən ola bilər.<br>• Bu yaxınlarda göz müayinəsindən keçməmiş və sadə uzaq görmə testi zamanı E hərflərini görə bilməyən şəxsləri göz müayinəsinə yönləndirin. Bu şəxslərin reseptlə verilən eynəklərə, digər göz sağlamlığı xidmətlərinə və ya zəif görmə üçün köməkçi məhsullara ehtiyacı ola bilər. |
| Görmə üçün köməkçi məhsulların faydalı olub-olmayacağını araşdırmağı təklif edin. | • **Yaxın görmə eynəkləri:** Yaxın görmə eynəklərindən faydalana biləcək şəxslər bunlardır:<br>○ Sadə uzaq görmə testindən keçmiş şəxslər;<br>○ Sadə yaxın görmə testində 3 və ya daha çox E görə bilməyən şəxslər;<br>○ 40 yaşdan yuxarı şəxslər.<br>• **Zəif görmə üçün köməkçi məhsullar:** Zəif görmə üçün köməkçi məhsullardan faydalana biləcək şəxslər müəyyən dərəcədə görmə qabiliyyətinə malik olsalar da, sadə uzaq görmə testi zamanı **E** hərflərini görə bilməyən şəxslərdir. |